# İnklüziv təhsil təhsilin humanist istiqaməti kimi

**Aytən İlqar qızı Nağızadə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aytanagizada@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. H.H. Əhmədov,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** inklüziv təhsil, cəmiyyət, hüquq, adaptasiya, inteqrasiya, mühit, şəxsiyyət, humanizm

**Ключевые слова:** инклюзивное образование, общество, закон, адаптированный, интеграция, окружающая среда, личность, гуманизм

**Key words:** inclusive education, society, law, adaptation, integration, environment, personality, humanism

XX əsrin sonu XXI əsrin əvvəllərində təhsildə köklü dəyişikliklər baş verdi. Bu dövrdə təhsilin fəlsəfi mahiyyətinə, məzmununa, əldə olunan biliklərin qiymətləndirilməsinə, müəllim-şagird münasibətlərinə, təlim-tərbiyə metodlarına və təhsilin müxtəlif elementlərinə yanaşmada kəskin dəyişikliklər nəzərə çarpırdı. Elm və texnologiyanın sürətli inkişafı bu dəyişikliklərin ortaya cıxmasını sürətləndirən başlıca səbəb idi.

Təhsil sahəsində inqilabi paradiqma dəyişikliklərdən biri xüsusi təhsildə meydana gəldi. Bu dəyişikliyin yaranmasının iki əsas səbəbi oldu. Ən mühüm amil II Dünya müharibəsindən sonra BMT-nin təsis edilməsi və bu təşkilat vasitəsilə irqindən, dinindən, milliyətindən, fiziki və əqli qüsurlarından və s. xüsusiyyətlərdən asılı olmayaraq bütün insanların bərabər haqq və hüquqlara sahib olmasının dünyaya bəyan edilməsi. Beləliklə, dünya miqyasında demokratik dəyərlərə hörmət, insanın yaradılış fitrətinə mərhəməti göz önündə tutan yeni baxışlar təhsil sahəsində də özünü göstərdi. Bununla da, inklüziv təhsilə gedən yolun əsası qoyuldu.

İkinci mühüm amil isə fiziki və əqli qüsur anlayışına baxış bucağının dəyişməsidir. Belə ki, uzun müddət təhsildə ənənəvi olaraq psixi-tibbi yanaşma üstünlük təşkil etmişdir. Bu yanaşmaya görə fərdin qüsurlarından ortaya çıxan maneələrin yalnız özündən qaynaqlandığını mühüm tutur və fərdin ətraf mühitlə əlaqəsində mühitin yaratdığı imkan və ya maneələri nəzərə almırdı. Bunun tamamilə əksi olaraq xüsusi təhsildə yeni istiqamət kimi peyda olan "təşkilati yanaşma" diqqəti insanın qüsurlarına deyil, mühitin imkanlarına istiqamətləndirirdi. Başqa sözlə desək, yeni paradiqmaya əsasən xüsusi təhsilin yeni pedaqoji fəlsəfəsində "qüsurlu insan yox qüsurlu mühit vardır" prinsipi başlıca yer tutmağa başladı. Bu səbəbdən də inklüziv təhsilin elmi-metodiki əsaslarını hazırlayan pedaqoqlar təlim prosesinin nəticə verməsi üçün əsas diqqətin qüsurlara deyil, bu qüsurların tələblərinə cavab verən təlim materiallarının, əyani vəsaitlərin, maddi-texniki vasitələrin mümkün qədər səmərəli istifadəsinə yönəltməyi tövsiyə edir (1,102).

Bu prinsipdən irəli gələn inklüziv təhsil modeli təhsil sahəsində yeni islahatların həyata keçirilməsini, təhsillə bağlı qanunlarda əlavə və düzəlişlərin edilməsini, kadr hazırlığında yeni bilik və bacarıqların tətbiqini, təhsil müəssisələrinin maddi-texniki bazasının daha da zənginləşdirilməsini və s. tədbirləri kompleks formada həyata keçirməyi sinif, məktəb, həmçinin dövlət səviyyəsində məqsəd kimi qarşıya qoydu. İnklüziv təhsil humanist dəyərləri də özündə birləşdirdiyindən geniş vüsət almağa başladı. Şübhəsiz ki, inklüziv təhsil ideyası formalaşana

qədər də fiziki və əqli qüsurlu insanların təhsili təmin olunurdu. Bununla əlaqədar olaraq, müvafiq diaqnoz qoyulmuş uşaqlar xüsusi təyinatlı məktəblərə cəlb olunurlar. Belə məktəblər dünyanın bütün ölkələrində hələ də mövcuddur. Hətta qüsurlu şəxslərə xüsusi məktəblərdə müvafiq səriştəli kadrlar tərəfindən daha keyfiyyətli təhsil verilir. Lakin bu tip məktəblərdə insan üçün ən mühüm ehtiyaclardan olan-insanlarla sosiallaşmaq ehtiyacı, cəmiyyətə inteqrasiya və adaptasiya təmin edilə bilmir. Bir qayda olaraq institutlaşmış şəkildə fəaliyyət göstərən xüsusi məktəblər təhsil alanları qapalı mühitə sanki həbs edir. Belə olduqda isə itirən tək onlar deyil, həm də bütöv cəmiyyət olur və cəmiyyətin bütövlüyü pozulur. Bunu əsas götürərək bütün uşaqların eyni məkanda təhsil almasını nəzərdə tutan inklüziv təhsil modeli bir addım öndədir.

Müasir təhsilə verilən ən əsas tələblərdən birincisi ondan ibarətdir ki, təhsil humanist istiqamətli və şəxsiyyət yönümlü olmalı, hər insanı bir dəyər kimi qiymətləndirməlidir. Əgər yanaşma belə olarsa, təhsilin müxtəlif forma və metodları, texnologiyaları bütün uşaqların adaptasiyası və inkişafı üçün maksimal qənaətbəxş şəraitin yaradılmasına yönəlmiş olar. İnklüziv təhsilin həyata keçirilməsi, yəni sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil mühitə daxil edilməsi təkcə zamanın əksi və tələbi deyil. O, həm də uşaqların qanuni təhsil hüququnun həyata keçirilməsidir. İnklüziv təhsil ümumiyyətlə xüsusi ehtiyacları olan uşaqların və onların ailələrinin həyatının keyfiyyətinin artırılmasını, onların uğurlu adaptasiyasını nəzərdə tutur.

Zaman keçdikcə təkmilləşən təhsil sistemi elə təhsil şəraiti yaratmalıdır ki, xüsusi təhsil ehtiyacları olan uşaq öz potensial imkanlarını həyata keçirə bilsin. Sağlamlıq imkanları məhdud uşaqların təhsili, sosial-mədəni mühitə inklüziyasiyası hal-hazırda pedaqogika, psixologiya və sosiologiyanın aktual problemidir. Elmi və pedaqoji praktika göstərir ki, əgər xüsusi təhsil ehtiyacları olan uşaq erkən yaşından sağlam həmyaşıdları ilə birgə böyüyürsə, onun sosializasiyası daha qənaətbəxş, inkişafı isə daha yüksək olur.

İnklüziv təhsilin tətbiqi həm cəmiyyətin, həm təhsil sisteminin, həm də hər bir şəxsiyyətin inkişafında böyük bir addımdır. Sağlamlıq imkanları məhdud uşaqlar bu prosesin tam hüquqlu iştirakçılarına çevrilir.

Qeyd etməliyik ki, ilkin mərhələdə inklüziv təhsil anlayışı yalnız fiziki və əqli qüsurlu uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunmasını nəzərdə tuturdu. Unutmaq lazım deyil ki, təhsildən məhrum olan yalnız fiziki/əqli qüsurlu uşaqlar deyil. Dünyada bu risk qrupuna həm də kasıb və aztəminatlı ailələrin uşaqları, müəyyən radikal dini görüşləri yaxud ciddi mühafizəkar adət və ənənələri olan və s. tipli ailələrin uşaqları daxildir. Bununla bağlı olaraq çox da dərin tarixi kökü olmasa belə inklüziv təhsil özünün inkişaf mərhələsində sərhədlərini genişləndirərək təhsildən məhrum olan hər kəsin təhsilə cəlb olunması fikrini ifadə etməyə başladı. 1994-cü ildə UNESCO tərəfindən qəbul olunan Salamanka Bəyannaməsi ilə bu proses geniş vüsət aldı. Uşaqların irqindən, cinsindən, milliyətindən, dinindən, əqli və fiziki imkanlarından və s. amillərdən asılı olmayaraq, birmənalı surətdə təhsil almaq hüququnun olduğunu dünya ictimaiyyəti qəti şəkildə bəyan edib. Bu bəyanatlar ümumdünya miqyasında əhəmiyyət kəsb edən sənədlərdə öz əksini tapıb. BMT-nin 1971-ci il tarixli "Əqli qüsurlu şəxslərin qüsurları haqqında" Bəyannaməsi, 1975-ci il tarixli "Əlillərin hüquqları haqqında" Bəyannaməsi, 1975-ci il tarixli "Əlillərin əmək qabiliyyətinin itirilməsi və bərpası haqqında" Qətnaməsi, 9 may 1979-cu il tarixli Elen Keller Ümumdünya Konfransında hazırlanıb bəyənilmiş "Görmə və eşitmə qabiliyyətini itirmiş şəxslərin hüquqları haqqında Bəyannamə", BƏT-nin 1983-cü il 1 iyun tarixli "Əlillərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 168 №-li Tövsiyəsi, BMT Baş Assambleyasının 1982-ci ildə qəbul etdiyi "Əlilliyi olan insanlara

dair Ümumdünya Fəaliyyət Proqramı", BMT Baş Assambleyasının 1993-cü ildə qəbul etdiyi "Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə" Beynəlxalq Standart Qaydalar, UNESCO-nun 1994-cü ildə qəbul etdiyi Salamanka bəyannaməsi və Fəaliyyət Çərçivəsi və 2000-ci ildə Dakarda keçirilmiş Dünya Təhsil Forumunda qəbul edilmiş "Fəaliyyət Çərçivəsi: Hamı üçün Təhsil" adı altında qəbul edilmiş kollektiv öhdəliklər əlilliyi olan insanların təhsil haqlarının olması və onların təhsilə cəlb edilməsinin vacibliyi və digər bütün hüquqları vurğulamışdır.

Mahiyyətcə humanizmi təlqin edən və demokratik prinsiplərə söykənən inklüziv təhsil yalnız məktəb çərçivəsində və təhsil sistemi səviyyəsində deyil, eyni zamanda bütün cəmiyyət miqyasında hər kəsə bərabər imkanlar və irqindən, dinindən, maddi-sosial vəziyyətindən ,əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir fərdinə ədalətli yanaşma tələb edir.

Dünyada geniş yayılan inklüziv təhsil modeli həmçinin bəzi suallar doğurmuşdur. Ən vacib suallardan biri isə bu təhsil modelinin keyfiyyət və səmərəsinin necə təmin olunmasıdır. Şübhəsiz ki, hər bir halda "təhsil" anlayışı yalnız şagirdlərin akademik biliklərə yiyələnməsi deyil, həm də onların həyati bacarıqlara və sosial səriştələrə yiyələnməsini nəzərdə tutur. Təcrübə göstərir ki, səriştə və bacarıqlar olmadığı halda, bir insanın öz biliklərini müvafiq peşə sahəsinə yerli-yerində effektli tətbiq edə bilməsi demək olar ki, mümkünsüzdür. Elə bu səbəbdən, akademik biliklər və bu biliklərin tətbiqi bacarıqları arasında balans təmin olunmalıdır. Məhz bu nöqteyi – nəzərdən inklüziv təhsil anlayışı daha geniş və ciddi məna kəsb edir.

İnklüziv təhsilin uğurlu nəticəsinin sirri təhsildə varislik prinsipindədir. Təhsilin hər hansı mərhələsində inklüziv təhsilin fayda verməsi üçün təhsilin bütün mərhələlərində inklüziv təhsil təşkil olunmalıdır. Bu mərhələnin ilk pilləsini "erkən müdaxilə" tədbirləri təşkil edir (1.107). İstər intellektual, istərsə də fiziki problemləri olan uşaqların (yaxud xüsusi qayğıya ehtiyacı olan uşaqlar) "erkən müdaxilə" fəaliyyətindən keçmədən inklüziv təhsilə cəlb olunduqlarında nəticə əksər hallarda qənaətbəxş olmur. Çünki intellektual problemli uşaqları lazımi müalicə almadan, müvafiq ilkin təlim görmədən, primitiv biliklərə və sosial bacarıqlara yiyələnmədən ümumtəhsil məktəblərində təlim prosesinə cəlb etdikdə onlar çaşqın vəziyyətdə qalır və prosesdən səmərəli faydalana bilmirlər. Belə olan halda onların mühitə uyğunlaşmasın ləngiyir. Bu zaman təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqların özləri deyil, həm də onlara daha çox diqqət və enerji ayırmağa məcbur olan müəllim və belə təşkil olunmuş təlim prosesində kölgədə qalan digər şagirdlərdə çox şey itirmiş olurlar.

"Erkən müdaxilə"nin hədəf qrupu yalnız uşaqlar deyil. Bura həm də valideynlər daxildir. Belə ki, "erkən müdaxilə"nin ikinci dərəcəli məqsədlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlara düzgün və davamlı yardım göstərə bilmək üçün valideynlərə lazımi bilik və bacarıqlar aşılamaqdır. Ailə-mərkəzli "erkən müdaxilə" tədbirləri əsasında, uşaqlarla daimi və birbaşa əlaqədə olan valideynlərə uşaqların fiziki, psixoloji və pedaqoji baxımdan optimal inkişafına təkan verən gərəkli metodların öyrədilməsi uşaqların inkişafını dəfələrlə sürətləndirir.

Azərbaycanda inklüziv təhsilin təməli yaxın keçmişdə qoyulmuşdur. Bunun da səbəbi sovetlər dönəmindən miras qalmış təhsil ənənələrinin müstəqillik dövründə də milli təhsil siyasətində uzun müddət dominantlıq təşkil etməsi idi. Bu da kifayət qədər təbii hadisə idi. Çünki uzun illər boyu sovet təhsil sisteminə inteqrasiya etmiş təhsilimizin istiqamətini qısa zamanda qərb yönümlü təhsilə istiqamətləndirmək elə də asan deyildi.

2001-ci ildə qəbul olunmuş "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikası qanunu"nda sağlamlıq imkanları məhdud şəxslərin təhsili və onların hüquqlarının qorunması öz əksini tapmışdır. Eyni zamanda, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlam-

lıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı" (2005-2009-cu illər) ilə təsdiq edilmişdir.

İnklüziv təhsilin digər pilot layihəsinə 2015-ci ilin mart ayında başlanmışdır. Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu (UNİCEF) arasında 2014-cü il tarixində imzalanmış "2014-2015-ci illərə dair İllik Fəaliyyət Planı"na müvafiq olaraq əlilliyi olan sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrinə inklüziv təhsilə cəlb olunması üçün nəzərdə tutulan "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası təhsil naziri əmr imzalamışdır. Hazırda bu layihə çərçivəsində Bakı şəhərinin iki ümumtəhsil məktəbində inklüziv təhsil layihəsi icra olunmaqdadır.

İnklüziv təhsil diqqətdən kənarda qalmaq və təcrid olunmaq təhlükəsi yaşayan şəxslərə xüsusi diqqət yetirmək şərti ilə bütün uşaqların, gənclərin və böyüklərin təlim ehtiyaclarını ödəmək üçün nəzərdə tutulan mütərəqqi yanaşmadır.

Sağlamlıq imkanları məhdud şəxslərə ictimaiyyətin münasibətini köklü surətdə dəyişmək, insanlarda bu şəxslərə qarşı dözümlülük, tolerantlıq tərbiyə etmək lazımdır. Cəmiyyət bu insanları özünün ayrılmaz bir hissəsi kimi qəbul etməli və onlara qayğı ilə yanaşmalıdır. Bu insanlar üçün iş yeri açılmalı, onlar öz imkanlarına uyğun peşələrə yiyələnməlidirlər. Bundan başqa, ictimaiyyət arasında inklüziv təhsilə münasibəti normallaşdırmaq məqsədi ilə təbliğat–təşviqat işləri aparılmalı, inklüziya prosesinə töhfə verə bilən qeyri–hökumət təşkilatları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edilməlidir.

**Məqalənin aktuallığı.** Dünyada baş verən qlobal inkişaf cəmiyyətin elmə, təhsilə dəyər verməsi inklüziv təhsilə olan diqqəti və qayğısı bu sahədə atılan humanist addımlar onun inkişaf etməsinə və genişlənməsinə yol açmışdır. Məqalə də bu mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Demokratik və humanist prinsiplərə söykənən inklüziv təhsil cəmiyyətin bütün üzvlərinə bərabərhüquqlu fərdlər kim münasibət göstərir ki, bu da öz növbəsində cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaradır. Çağdaş dünyamızda təhsil sferasında bu dəyərlər inklüziv təhsilin timsalında təzahür etməkdədir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də tədqiqatçılar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı, 2016.
2. Əhmədov H. Azərbaycan təhsilinin inkişafı strategiyası. Bakı, 2010.
3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil İnstitutu İnklüziv Təhsil Şöbəsi. Xüsusi təhsil ehtiyacları olan uşaqlara müasir yanaşmalar. Bakı, 2018.
4. http://www.specialeducationguide.com
5. http://www.inclusionbc.org

**А.И. Нагизаде**

## Инклюзивное образование как гуманистическая сфера образования

**Резюме**

Инклюзивное образование помогает всем членам общества с ограниченными физическими возможностями интегрировать в жизнь и обеспечивать свои права, спасая их от изоляции от общество.

**A.I. Naghizada**

## Inclusive education as a humanistic aspect of education

**Summary**

Inclusive education helps to all members of society with disabilities to integrate into life and ensure their rights from being isolated from society.

**Redaksiyaya daxil olub:** 12.11.2019